

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 sentyabr 2017-ci il № 67 (2184) Qiyməti 25 qəpik


# Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla qərbli həmkarları arasında Bakıda növbəti görüşün keçirilməsi üçün Azərbaycan tərəfinin məmnunluqla şərait yaratdığını vurğuladı və qeyd etdi ki, bu danışıqlar risklərin qarşısının alınması, qarşılıqlı etimadın möhkəmlənməsi işinə xidmət edir. Biz qlobal miqyasda ümumi gərginliyin azaldılmasında maraqlıyıq və Bakıda artıq ikinci dəfədir ki, bu mühüm danışıqların keçirilməsindən məmnunluq hissi duyuruq. Prezident İlham Əliyev qeyd etdi ki, bu danışıqlar həm Azərbaycana olan etimadın nümunəsidir, eyni zamanda, Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin yaxşı göstəricisidir. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bütün digər sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq həyata keçirilir. Bu yaxınlarda keçirilən Beynəlxalq Ordu Oyunlarına toxunan dövlətimizin başçısı Azərbaycanın da bu yarışların keçirildiyi məkana çevrildiyini vurğulayaraq qeyd etdi ki, ölkəmiz bu tədbirlərə az bir zamanda qoşulmasına baxmayaraq, artıq fəal iştirakçıya çevrilib.

Prezident İlham Əliyev ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirdi və qeyd etdi ki, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun səfəri gündəlikdə duran məsələlərin və əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Valeri Gerasimov Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının bütün sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahələrdə də uğurlu əməkdaşlıq həyata keçirdiyini dedi. O qeyd etdi ki, ölkələrimiz arasında ənənəvi olaraq dostluq münasibətləri mövcuddur və Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır.

Beynəlxalq Ordu Oyunlarına toxunan Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi məmnunluqla vurğuladı ki, Azərbaycan komandası ötən il iki oyunda iştirak etmişdisə, bu il artıq beş yarışda iştirak edib və tədbirlərdən birinin təşkilatçısı olub.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "ATƏT Parlament Assambleyasının Azərbaycanla yaxşı işgüzar əlaqələri var"

*AZƏRTAC xəbər verir ki, bu fikri ATƏT-in Parlament Assambleyasının sədri Kristin Muttonen jurnalistlərə müsahibəsində deyib.*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT PA-nın rolunu şərh edən K.Muttonen bildirib ki, ATƏT PA-nın sessiyalarında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması barədə müzakirələr aparılacağına əmindir. Assambleyada təmsil olunan parlamentarilər ölkələri üçün vacib olan məsələləri müzakirə edirlər. ATƏT PA müxtəlif mövzuların müzakirəsi üçün platformadır. ATƏT məkanında münaqişələrin həlli xüsusi əhəmiyyət daşıyır.

## Ermənistanın işğalçılıq siyasəti Dünya İqtisadi Forumunda tənqid olunub

Sentyabrın 5-də Polşanın Krıniça şəhərində başlamış 27-ci Dünya İqtisadi Forumu bu gün də işini davam etdirib. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının baş məsləhətçisi Toğrul Məmmədli bu gün "Şərq Tərəfdaşlığının 8 ili: uğursuzluqlar, nailiyyətlər, gələcək" adlı plenar sessiyada çıxış edib.

Şuradan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının 25 ili ərzində əldə edilmiş nəticələrə dair statistik məlumatları sessiya iştirakçılarının nəzərinə çatdıran Toğrul Məmmədli ölkəmizlə Aİ arasında tərəfdaşlığın perspektivləri, Avropanın enerji təhlükəsizliyi kontekstində Azərbaycanın rolu haqqında danışıb.

Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan və erməni deputat Miqran Akopyanın da şərhçi olduğu bu sessiyadakı çıxışı zamanı Toğrul Məmmədli Avropa İttifaqı və Azərbaycan arasındakı əməkdaşlıq əlaqələri ilə yanaşı, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti, iyulun 4-də 2 yaşlı Zəhranın və nənəsinin qətlə yetirilməsi haqqında məlumat verərək Ermənistanı barbar adlandırıb.

Qeyd edək ki, Polşada hər il keçirilən və 3000-dən artıq qonağın iştirak etdiyi bu tədbir Mərkəzi və Şərqi Avropanın ən irimiqyaslı konfransı sayılır.

# Azərbaycan güclü orduya malik ölkələr sırasındadır

## Müdafiə naziri general-polkovnik Zakir Həsənov “MSPO-2017” sərgisində iştirak edib



*Müasir dövrdə ölkəmizin siyasi kursunda ordu quruculuğu mühüm yer tutur. Bu da səbəbsiz deyil. Azərbaycanın 20 faiz torpaqlarının uzun illərdən bəri işğalda qalması dövlətimizi öz hərbi potensialını artırmağa vadar edir. Çünki Ermənistanla Azərbaycan arasında başlanan hərbi münaqişənin diplomatik vasitələrlə həllini tapa bilməməsi ölkəmizin rəhbərliyini başqa vasitələrə əl atmağa məcbur edir. Heç kimə sirr deyil ki, belə münaqişələrin həllində hərb variantı istisna deyil. Məhz buna görə də Azərbaycan dövləti Silahlı Qüvvələrini müasir hərbi sənayenin nailiyyətləri əsasında daha da gücləndirir, yeni silah və hərbi texnikaların silahlanmaya daxil edilməsinə ciddi əhəmiyyət verir.*

Azərbaycanın hərbi potensialının gücləndirilməsinə diqqət yetirən Prezident, Ali Baş Komandan İlham Əliyev də dəfələrlə öz çıxışlarında birmənalı şəkildə qeyd edib ki, ölkəmizin hərbi qüdrəti durmadan artırılmalı və Silahlı Qüvvələrimiz dünyanın güclü orduları sırasında yer tutmalıdır. Artıq dövlətimizin məqsədyönlü siyasəti bu sahədə də öz bəhrəsini verib - Azərbaycan Ordusu nüfuzlu ölkələrin orduları səviyyəsinə çatıb. Qürurverici haldır ki, ölkəmiz bu uğura qısa bir vaxtda formalaşan güclü iqtisadiyyatı hesabına imza atıb. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük miqyasda inkişaf edib. Bir vaxtlar yalnız xarici dövlətlərin hərbi istehsalından idxal edilən silah və hərbi texnikalar hesabına formalaşan ordumuzun təminatında artıq milli hərbi sənayemizin məhsulları da böyük həcmdə yer tutur.

Silahlı Qüvvələrimizin müasir ordular səviyyəsində silahlanması ilə bərabər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin də durmadan artırılması rəhbərliyinin diqqət mərkəzindədir. Bu baxımdan hərbi bölmələrdə şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına önəm verilir və beynəlxalq səviyyədə təcrübə mübadiləsi aparılır. Azərbaycan hərbçiləri ardıcıl olaraq NATO və digər ölkələrin hərbi əməkdaşlıq planlarına əsasən keçirilən təlimlərdə fəal iştirak edirlər. Ən müasir silahı da idarə edən insan beynidir, - deyimi də sübut edir ki, hərbi qulluqçular müasir silah və texnikaların istifadə qaydalarını mükəmməl mənimsəməyə borcludurlar.

Azərbaycanın ordu rəhbərliyi artıq neçənci dəfədir ki, beynəlxalq müdafiə sənayesi sərgilərində uğurla təmsil olunur. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Polşa Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Kielce şəhərində keçirilən “MSPO-2017” beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edib.




Məlumatda qeyd olunduğu kimi, Azərbaycanın nümayəndə heyəti sərgidə nümayiş etdirilən hərbi və müdafiə təyinatlı məhsullara baxış keçirib, müxtəlif ölkələrin müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olub.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri Cümhuriyyət dövrünün hərbi xadimlərinin xatirəsinə Varşavada ucaldılmış abidənin açılışında iştirak edib



*Cümhuriyyət tariximizdə məşhur hərb xadimlərinin də böyük rolu vardır, çünki onlar milli ordu quruculuğunda misilsiz xidmətlərə malik insanlardır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Polşaya səfəri çərçivəsində bu ölkədə Cümhuriyyət dövrünün hərb xadimlərinin xatirəsinə yaradılmış abidənin açılışında iştirak edərək müasir dövrdə Azərbaycanın ordu quruculuğunda tarixi ənənələrə sədaqət və hörmət göstərildiyini sübuta yetirib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Polşa Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 7-də Varşava şəhərində Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hərbi xadimləri general-leytenant Süleyman bəy Sulkeviç və polkovnik Vəli bəy Yadigarın xatirəsinə ucaldılmış abidənin açılışında iştirak edib.

Mərasimdə ölkəmizin Polşadakı səfirliyinin əməkdaşları, Polşa Silahlı Qüvvələrinin rəhbərliyi, Xarici İşlər Nazirliyinin, Milli Yaddaş İnstitutunun, Polşa Parlamentinin, Veteranlar Təşkilatının nümayəndələri, Varşava şəhəri administrasiyası və ictimaiyyət nümayəndələri, eləcə də diaspora üzvləri iştirak ediblər.

Abidənin açılış mərasimində çıxış edən Müdafiə naziri tarixən sıx olan Polşa-Azərbaycan münasibətləri barədə danışaraq, bugünkü tədbirin simvolik əhəmiyyət daşıdığını və iki ölkə arasında hərbi əməkdaşlığın inkişafında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edənlər general-leytenant Süleyman bəy Sulkeviçin (Matsey Aleksandroviç Sulkeviç) 1919-cu ilin martından 1920-ci ilin fevralınadək Azərbaycan Xalq Cümhuriyyəti ordusunun Baş Qərargah rəisi vəzifəsində xidmətdə olarkən milli hərbi hissələrin yaradılması və ölkənin müdafiə sisteminin qurulmasında gördüyü əhəmiyyətli işlərdən bəhs ediblər.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti Vəli bəy Yadigarın 1920-ci ildə Azərbaycanın işğalından sonra Polşaya mühacirəti, Mazovetski süvari briqadasının qərargah rəisi vəzifəsində xidməti, Armiya Krayovanın tərkibindəki polkun komandiri kimi Varşava üsyanında iştirakı və digər maraqlı faktlar mərasim iştirakçılarının diqqətinə çatdırılıb.



# Bakıda Azərbaycan və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin görüşü keçirilib

*Sentyabrın 7-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan general-polkovnik N.Sadıkov iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını və onun beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, Rusiyanın Azərbaycanın vacib strateji tərəfdaşı olduğunu qeyd edərək yüksək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini bir daha qeyd edib.



Sonra tərəflər hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı V.Gerasimov NATO-nun Hərbi Komitəsinin sədri general Petr Pavel ilə ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycanla NATO arasında əməkdaşlıq məsələləri müzakirə olunub

*Sentyabrın 7-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO-nun Hərbi Komitəsinin sədri general Petr Pavelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan general-polkovnik N.Sadıkov Şimali Atlantika Alyansı ilə hərbi əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq, o cümlədən Silahlı Qüvvələrimizin müxtəlif proqramlar çərçivəsində fəaliyyəti, Əfqanıstanda həyata keçirilən "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verilən töhfə haqqında ətraflı danışıb.

General-polkovnik N.Sadıkov Azərbaycan ilə NATO arasında səmərəli və etibarlı münasibətlərin qurulmasında ümummilli lider Heydər Əliyevin və dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xidmətlərini xüsusi qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb. NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən Baş Qərargah rəisi Alyansın bundan sonra da bu istiqamətdə səylərini davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində NATO-nun Hərbi Komitəsinin sədri general P.Pavel Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlarda göstərdikləri peşəkarlığı yüksək qiymətləndirib.

Azərbaycana səfər etməsindən məmnun olduğunu bildirən qonaq Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə ikitərəfli görüşün məhz Bakıda keçirilməsi üçün göstərilən səylərə və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Şərh*

# Ermənistan rəhbərliyində növbəti qalmaqal

İşğalçı Ermənistan bir çox beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan tədbirləri öz yalanlarına, iftiralarına inandırmaq üçün daim dərindən-qabıqdan çıxır. NATO kimi mötəbər bir qurumun keçirdiyi tədbirlər də Ermənistanın kriminal siyasi-hərbi rejimi üçün istisna deyil.

Rusiyanın "qəzəbinə" tuş gəlməkdən qorxan Ermənistan rəhbərliyi NATO ilə əlaqələrinə ehtiyatla yanaşır. NATO ilə "dostluğunu" da itirmək istəməyən Ermənistan, çətinliyə düşəndə dərhal tərəf dəyişməyi "ustalıqla" bacarır.

Bunu son günlər Ermənistan rəhbərliyinin və siyasi ekspertlərin Gürcüstanda keçirilən NATO-nun "Agile Spirit-2017" hərbi təlimləri ilə bağlı verdiyi açıqlamalar təsdiq edir. Əvvəl təlimlərdə Ermənistan silahlı qüvvələrinin iştirak edəcəyindən ağızdolusu danışan erməni mətbuatı son günlər bu ölkənin təlimlərdə iştirak etməyəcəyi barədə ziddiyyətli açıqlamalar dərc edir.

Ölkə mətbuatında yayılan "Ermənistan təlimlərdə iştirakı barədə rəsmi məlumat verməyib", "Ermənistan silahlı qüvvələrinin təlimlərdə iştirakı rəsmi surətdə təsdiq edilməyib" kimi gündəlik məlumatlarla Ermənistan hakimiyyəti hər iki tərəfə yarınmağa çalışır. Rusiyanın könlünü almağa, NATO-nu küsdürməməyə çalışan rəsmi Yerevanın atdığı addım o qədər primitiv, o qədər saxtalıqla həyata keçirilir ki, gülüş doğurur. Ermənistan diplomatiyasında bu tip siyasi ədabazlıqlar və eybəcərliklər artıq bir vərdiş halını alıb.

"Müstəqil" politoloq Styopa Safaryan isə, Gürcüstanda keçirilən NATO-nun "Agile Spirit-2017" hərbi təlimlərində iştirakdan işğalçı ölkənin boyun qaçırması ilə bağlı verilən absurd açıqlamalara nöqtə qoymaq üçün uğursuz cəhd göstərib.

S.Safaryan tert.am saytına verdiyi açıqlamasında bir çox "dəyərli faktları", "vacib məqamları" xatırlatmaqla yenə də Ermənistanın rolunu dünya səviyyəsinə, qlobal miqyasa qaldırmaq üçün özlərinə xas hiyləgərliklə dərindən-qabıqdan çıxır. O, utanmadan təsəvvür yaratmağa çalışır ki, guya ABŞ prezidentinin Rusiya haqqında sanksiyalar barədə qərarı məhz Ermənistan və NATO əlaqələrindən irəli gəlir və bu da rusiyalı ekspertlərin qəzəbinə səbəb olub. Safaryan müsahibəsində "Ermənistan Rusiyanın qorxusundan təlimlərdə iştirakdan boyun qaçırdı" fikrini bir az yumşaltmaq naminə Azərbaycanın yürütdüyü uğurlu siyasətdən, Azərbaycan Ordusundan qorxduqlarını və təlimlərə qatılmadıqlarını dolayısı ilə boynuna alır.

Sonda "Ruslar qarşısında qorxudan və yaxud onlar tərəfindən təzyiqlərə görə olsa da, Ermənistanın Gürcüstanda keçirilən çoxmillətli təlimlərdən boyun qaçırmasının əsas səbəblərindən biri kimi Azərbaycanın təlimlərə iştirakını da gərək nəzərdən qaçırmayaq", - deyən politoloq S.Safaryana yenə də rus xalqının "ikinci xoşbəxtliyin abırsızlıq olması" barədə çox gözəl deyimi ilə cavab vermək daha düzgün olardı.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# Hava məkanımızın etibarlı müdafiəçiləri

*Bu dəfə üz tutduğum ünvan Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə bölmələrindən biridir. Fasiləsiz döyüş növbətçiliyi aparan bölmədə hər gün xidmətə yüksək intizamla başlanılır. Rituala uyğun olaraq döyüş tapşırığı şəxsi heyətə çatdırılır, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilir və tribunanın önündən təntənəli keçid olur. Bununla da döyüş növbətçiliyi başlayır.*





Hərbi qulluqçularımızla həmsöhbət olan zaman bildirdilər ki, hava məkanımızın etibarlı müdafiəsi üçün əllərindən gələni əsirgəmir, bilik və bacarıqlarını daim təkmilləşdirir, hər döyüş növbətçiliyini uğurla həyata keçirirlər. Zabitlərdən Elnur Mikayılov, Tural Vahidov, Ruslan İsayev, Hümbət Məmmədli və başqaları şəxsi heyətin döyüş qabiliyyətinin, fiziki və mənəvi-psixoloji hazırlığının daim artırılması üçün döyüş hazırlığı planına uyğun tədbirlərin həyata keçirildiyini diqqətə çatdırdılar. Hava Hücumundan Müdafiə bölmələrində xidmət etmək hər kəsdən daha çox peşəkarlıq və sayıqlıq tələb edir. Belə ki, Hava Hücumundan Müdafiə bölmələri sülh dövründə də döyüş tapşırıqlarını yerinə yetirməklə Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edir. Bu gün silahlanmamızda olan texnikalar yüksək texniki imkanlara malikdir və düşmənin ən müasir hava hücumu vasitələrini məhv etməyə qadirdir. Bu gün əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikasının hava sərhədləri etibarlı müdafiə olunur.

"OSA 1T" zenit raket kompleksinin döyüş heyətləri ilə keçirilən dərsdə zabit Novruz Sadiqov bildirdi ki, müasir hərbi texnika ilə silahlanmış bölmələr hava məkanımızın qorunması üçün döyüş növbətçiliyinə cəlb olunublar. "Muxtar respublika ərazisinin mürəkkəb relyefli olmasına baxmayaraq "OSA 1T" döyüş maşınlarının texniki xüsusiyyətləri alçaq hündürlüklü, kiçik ölçülü, qəflətən peyda olan hədəflərin vaxtında aşkar olunmasına və məhv edilməsinə imkan verir. Heyətlərimiz dəfələrlə döyüş atışlı taktiki təlimlərdə yüksək nəticələr göstəriblər. Bu uğurlar bizi arxayınlaşdırmır, əksinə, şəxsi heyətin döyüşə hazırlığını artırmaq üçün daha da əzmlə çalışırıq. Mən də bir Vətən müdafiəçisi kimi fəxr edirəm ki, Azərbaycan Ordusunda xidmət edirəm."



Hərbi qulluqçuların dərs, məşğələ və təlimlərdə iştirakı ilə yanaşı, asudə vaxtları da səmərəli təşkil edilir, həmçinin döyüş tapşırıqlarını cəld, çevik şəkildə yerinə yetirmələri üçün fiziki hazırlıq dərsləri keçirilir. Əsgərlərin bir qrupu ilə asudə vaxtlarında həmsöhbət olub, hərbi xidmətlə bağlı təəssüratlarını öyrəndim. Kiçik çavuş Cavid Talıbov, Elxan Dadaşov, əsgərlərdən Elçin Məmmədəliyev, Bəhruz Paşazadə, İntiqam Şahtaxtinski, Orxan Məmmədov, Şadiman Səfərov və başqaları bildirdilər ki, əsas vəzifəmiz hava sərhədlərimizi etibarlı müdafiə etməkdir. Bu məqsədlə keçirilən məşğələlərdə onlar fəal iştirak edir, bilik və bacarıqlarını daim artırırlar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**fotolar**
**əsgər**
**Rasim İSMAYILLININDIR**

## Yeni dərs ilinin ilk məşğələsi Cocuq Mərcanlıya həsr ediləcək

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ümumtəhsil müəssisələrində 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsi "Cocuq Mərcanlı - tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunacaq. Məqsəd uşaq və gənclərə Azərbaycan Ordusunun 2016-cı il aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlar və işğaldan azad olunmuş torpaqlarımıza qayıdışın rəmzinə çevrilən Cocuq Mərcanlı kəndi haqqında daha dolğun məlumatlar verilməsini təmin etməkdir.



Respublikamızın ümumtəhsil müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, 2017-2018-ci tədris ilində ilk dərs məşğələsinin "Cocuq Mərcanlı - tarixi qayıdışın başlanğıcı" mövzusunda keçirilməsi ilə əlaqədar müvafiq hazırlıq işləri aparılmaqla ilk dərslərin şagirdlərin ifasında Azərbaycanın Dövlət himni ilə başlanmasını, mövzu ilə bağlı şagirdlərə onların yaş xüsusiyyətlərinə uyğun məlumatların çatdırılmasını təmin etsinlər. Bundan əlavə, həmin dərslərdə Aprel döyüşlərində Azərbaycan Ordusunun qəhrəmanlığı, Lələtəpə əməliyyatında qazanılmış qələbənin tarixi əhəmiyyəti, Prezident İlham Əliyevin torpaqların işğaldan azad edilməsi istiqamətində genişmiqyaslı fəaliyyəti, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və yerli əhalinin buraya köçürülməsi ilə başlanan böyük qayıdışın siyasi və sosial mahiyyəti barədə şagirdlərə zəruri məlumatlar veriləcək. Həmçinin ümumtəhsil məktəblərində keçiriləcək "Bilik günü" tədbirlərində və ilk dərslərdə Qarabağ müharibəsi iştirakçılarının və əmək veteranlarının, ədəbiyyat və incəsənət xadimlərinin, ictimaiyyətin, şəhid ailələrinin nümayəndələrinin iştirakı təmin olunacaq.

## Hərbi və mülki sahədə çalışan tibbi heyətin birgə konfransı

*AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Mövsümi infeksion xəstəliklər - qripin profilaktikası və müalicəsi, odlu silah yaralanmalarına müasir yanaşma" mövzusunda konfrans olub.*

Hərbi və mülki sahədə çalışan səhiyyə işçilərinin iştirak etdiyi konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə "Epidbiomed" Tibb Şirkətinin baş direktoru Namiq Əliyev, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkim-infeksionisti Süleyman Cabbarov çıxış edərək muxtar respublikada infeksion xəstəliklərə qarşı aparılan mübarizə tədbirlərindən bəhs ediblər. Qeyd edilib ki, hər bir infeksion xəstəliyin öz spesifikası var. Bu, xəstəliyi törədən infeksiyanın növündən asılı olaraq dəyişir. İnfeksiyanın insan orqanizmində əmələ gətirdiyi xəstəliklərin patoloji əlamətləri yalnız infeksiyanın xarakterindən deyil, daxil olduğu orqanizmin müqavimətindən də asılı olur.

Son illərdə muxtar respublikada ordu quruculuğuna göstərilən diqqət və qayğıdan danışan Naxçıvan Hərbi Hospitalının rəisi, tibb xidməti polkovniki Əli Allahverdiyev bu qayğıdan hərbi tibb ocaqlarına da pay düşdüyünü deyib. Vurğulayıb ki, bu gün muxtar respublikada yerləşən hərbi hissələrdəki tibb məntəqələrində, eləcə də hərbi hospitalda ən müasir tibb avadanlıqlarından istifadə edilir. Bütün bu görülən işlər isə, son nəticədə hərbçilərin sağlam ruhda xidmət etmələrinə şərait yaradır. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, son illərdə hərbi hissələrdə infeksion xəstəliklərin kütləvi yayılması hallarına rast gəlinmir. Bu sahədə irəliləyişə nail olunmasında vaksinasiya tədbirlərinin də mühüm əhəmiyyəti vardır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin baş cərrahı, tibb xidməti polkovniki Mütəllim Həsənov məruzəsində odlu silah yaralanmalarına müasir yanaşma, yeni müalicə metodları və döyüş şəraitində ilkin tibbi yardımın təşkilindən bəhs edib. Bildirib ki, bu cür yaralanmalar daha çox müharibə dövrü ilə bağlıdır. Lakin erməni silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması zamanı, habelə snayperlər tərəfindən hərbçilərin və hətta hərbi zonada yaşayan mülki əhalinin hədəfə alınması nəticəsində də odlu silah yaralanmaları qeydiyyata alınır. Belə yaralanmalarda ilkin tibbi yardımın və cərrahi əməliyyatların qısa zamanda aparılmasının böyük əhəmiyyəti vardır. Bu gün döyüş şəraitində hospitalların dislokasiya yerini dəyişərək, öz fəaliyyətini cəbhəyə yaxın bölgələrdə davam etdirməsi üçün bütün imkanlar mövcuddur. Ancaq tələbat yarandığı şəraitdə mülki xəstəxanaların da bu prosesə qoşulması labüddür. Buna görə də hərbi və mülki sahədə çalışan əməkdaşların fikir və təcrübə mübadiləsi vacibdir. Bu baxımdan hərbi və mülki sahədə çalışan tibbi heyətin birgə iştirak etdiyi konfransın böyük əhəmiyyəti vardır.

Konfransda yekun sözü ilə çıxış edən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev muxtar respublikada ordu quruculuğuna və hərbi tibb sahəsinin inkişafına, eləcə də bu konfransın təşkilinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə minnətdarlığını bildirib, bu sahədə daha böyük nailiyyətlər əldə olunacağına əminliyini ifadə edib.

# Qarabağ müharibəsi veteranları fəxri döyüş növbəsində



*Qurban bayramı münasibətilə Silahlı Qüvvələrdə keçirilən "Açıq qapı" günü tədbirlərindən birində Tərtər rayonunun Qarabağ müharibəsi veteranlarından bir qrupu Müdafiə Nazirliyinin rəhbərliyinə ön səngərə - döyüş mövqeyinə gedərək şəxsi heyətlə görüşmək, gənc əsgərlərlə birlikdə döyüş növbəsinə çıxmaq arzularını bildiriblər.*

Veteranların bu təşəbbüsünün şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində mühüm əhəmiyyət kəsb edəcəyini nəzərə alan Müdafiə naziri yerindəcə aidiyyəti üzrə tapşırıqlar vermiş və veteranların istəklərinin tezliklə reallaşacağını bildirmişdir.

Artıq keçmiş döyüşçülərdən bir qrupu Tərtər şəhər Heydər Əliyev Parkından düşmənlə üzbəüz döyüş mövqelərinə yola salınmışlar.

Yolasalma mərasimində rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İcra başçısı bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevlə başlanan müstəqil respublikamızın ordu quruculuğu prosesi bu gün möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dövlət müstəqilliyini, ərazi bütövlüyünü qoruyan güclü və qüdrətli Silahlı Qüvvələrimiz vardır. Azərbaycan Ordusunun uğur və nailiyyətləri bütün xalqımız kimi tərtərliləri də sevindirir, hər bir rayon sakini ordumuza arxalanır, ona güvənir. Etibarlı şəkildə müdafiə olunan rayonun bərəkətli torpaqlarında əkin-biçinin geniş vüsət alması, kənd təsərrüfatının dinamik inkişafı məhz ölkə başçısının apardığı məqsədyönlü daxili və xarici siyasətin, eləcə də ordumuzun gücü sayəsində mümkün olmuşdur.

Azərbaycan Prezidentinin və Müdafiə Nazirliyi rəhbərliyinin mütəmadi olaraq cəbhəboyu zonaya gəlişləri, hərbi qulluqçularla yanaşı, rayon sakinləri ilə görüşləri həm ordunun şəxsi heyətinin, həm də yerli əhalinin işğal altında olan torpaqların tezliklə azad ediləcəyinə inamlarını daha da artırır. Ordu ilə xalqın birliyi daha da möhkəmlənir. Gənclərin vətənpərvərlik tərbiyəsi, orduya hazırlanması rayonda prioritet məsələlərdəndir.



Ehtiyatda olan mayor Pənah Məmmədov çıxış edərək deyib: "Uzun illərdən sonra yenidən hərbi libas geyinməyimiz hər birimiz üçün qürurvericidir. Yaxşı bilirik ki, güclü ordumuz var, onun igid döyüşçüləri var. Biz Azərbaycan əsgərinin nəyə qadir olduğunu aprel döyüşləri zamanı bir daha gördük. Həmin günlərdə bütün tərtərlilər də ayaq üstə idi. Hamı döyüşə can atırdı. Ancaq ehtiyac olmadığını bildirdilər. Bu gün də bizə ehtiyac yoxdur. Ancaq biz bu gün fəxri döyüş növbəsinə gedirik. Vətən müdafiəçiləri ilə görüşəcək, keçdiyimiz döyüş yolu barədə söhbət açacaq, onlara mənəvi dayaq olacağıq. Nə qədər gec deyil, qoy düşmən işğal etdiyi ərazilərdən qeyd-şərtsiz rədd olub getsin. Yoxsa aprel döyüşləri yenidən təkrarlanacaqsa, bu dəfə vuracağımız zərbə daha sarsıdıcı, daha dağıdıcı olacaq. Döyüşlərdən çıxmış, böyük təcrübə toplamış biz veteranlar da Azərbaycan əsgərinin yanında olacağıq."



Polkovnik Abdulla Qurbani "Əsgər oğul, ürəyini aç mənə" aksiyası çərçivəsində Tərtər veteranlarının hər bir əsgərlə fərdi söhbət aparacaqlarını, onların problem və qayğıları ilə yerindəcə tanış olacaqlarını, döyüşlərdə qazandıqları təcrübədən bəhrələnmələri üçün gənc zabitlərlə məşğələlər təşkil edəcəklərini və fəxri döyüş növbəsi çəkəcəklərini nəzərə çatdırıb.

Veteranlar əsgərlər üçün Tərtər bağlarından dərilmiş xeyli meyvə sovqatları da aparıblar.

Döyüş mövqelərində veteranlar səmimiyyətlə qarşılanıb. Onları müşayiət edən A.Qurbani keçmiş döyüşçüləri şəxsi heyətə təqdim edib. Onların 90-cı illərin əvvəllərində Ağdərə və Tərtər rayonları uğrunda göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söhbət açılıb. Şəhidlərin xatirəsi ehtiramla yad edilib. Tərtər qəhrəmanlarına həsr olunmuş "Batalyon" sənədli filmi nümayiş etdirilib. Əsgərlərin sualları cavablandırılıb. Polkovnik-leytenant Babək Səmidli bu cür görüşlərin davamlı olacağına əminliyini bildirib.

Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Tərtər rayon filialının sədri Suliddin Yusifov, keçmiş döyüşçülərdən Mətləb Manafov, Elbrus Sadıqov, Elman Quliyev, Rövşən Məmmədov, Vüqar Quliyev və başqalarının çıxışları şəxsi heyətin böyük marağına səbəb olub.

Veteranlar aprel döyüşləri zamanı azad edilmiş yüksəkliklərə qalxaraq xidmət şəraiti ilə tanış olub, düşmən mövqelərini müşahidə edib, əsgərlərə məsləhətlər verib, düşmən təxribatlarının qarşısını qətiyyətlə alan şəxsi heyətin peşəkarlığının və döyüş ruhunun yüksək səviyyədə olduğundan böyük fərəh hissi keçirdiklərini bildirib, fəxri döyüş növbəsində hər bir gəncə örnək olacaq xidmət nümayiş etdiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Sentyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli, 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 1 sentyabr 2017-ci il tarixədək 84.650.521,36 AZN, 212.873,88 ABŞ dolları, 8336,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*8 sentyabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 121 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, İcevan rayonunun Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Əsrik Cırdaxan, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# “Ümid yerimiz olan ordumuzla fəxr edirik”

*Hərbi hissə və müəssisələrdə çalışan mülki işçilərin sosial hüquqlarının müdafiəsini həyata keçirən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri orduyla sıx əlaqə saxlayır, düşmənlə təmas xəttində döyüş növbətçiliyi aparan bölmələrimizə tez-tez baş çəkirlər. Ordu həmkarlarının nümayəndələri Abiyat Ağadadaşovanın rəhbərliyi ilə Qurban bayramı ərəfəsində də cəbhə xəttinə getmişdi.*



Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələrini hərbi hissədə mehribanlıqla qarşıladılar. Polkovnik Polad Həşimov qonaqları səmimi salamladı və onlara göstərdikləri xeyirxah təşəbbüsə görə öz minnətdarlığını bildirdi. O, hazırda təmas xəttində döyüş növbətçiliyi aparan zabit və əsgərlərimizin fədakar xidməti barədə ətraflı danışdı. Zabit bildirdi ki, qoşunlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə hərtərəfli əhatə edilib, döyüş növbəsinin aparılması ilə yanaşı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq, gündəlik döyüş hazırlığı dərslərində, təlimlərdə öz ixtisas hazırlıqlarını artırmaqla məşğuldurlar. "Bölmələrimiz Ali Baş Komandanın verəcəyi istənilən döyüş tapşırığını hər an yerinə yetirməyə hazırdır", - deyən polkovnik onu da vurğuladı ki, ictimaiyyətin nümayəndələri ilə belə görüşlər cəmiyyətimizin orduya mənəvi dəstəyinin bariz nümunəsidir.

Komitə sədri Abiyat Ağadadaşova vurğuladı ki, Prezidentimizin qayğısı sayəsində Silahlı Qüvvələrimiz bu gün çox yüksək səviyyədə təmin olunur. "Biz də bir BHİK olaraq, həmişə sizin yanınızdayıq. Ön mövqelərə baş çəkməkdə məqsədimiz Azərbaycan əsgərinə öz mənəvi dəstəyimizi göstərməkdir. Elimizin bir adəti var: qonaq heç yerə əliboş getməz. Bu dəfə də döyüşçülərimizə sovqat gətirməyi özümüzə borc bildik".

Sonra qonaqlar ön xətdə yüksəkliklərdə döyüş növbətçiliyi aparan cəsur oğullarla görüşüb, onların xidmətilə yaxından maraqlandılar. Komitə sədri Abiyat Ağadadaşova zabit və əsgərlərimizlə mehriban söhbət etdi, onların qayğıları ilə maraqlandı. Olduqca səmimi şəraitdə keçən söhbət həm döyüşçülərin, həm də qonaqların ürəyincə oldu.

Komitə sədri fərəhlə qeyd etdi ki, biz bu gün də ordumuzun zabit və əsgərlərini vətənpərvər, qürurlu, Azərbaycan naminə hər cür fədakarlığa hazır görürük. "Daşqın Bənnayev, Samir Əsgərov kimi bacarıqlı, hazırlıqlı zabitlərin əsgərlərimizlə həm tələbkar, həm də qayğıkeş davranışı hər birimizin ürəyincə oldu. Hamımızın ümid yeri olan ordumuzla fəxr etməliyik. İnanıram ki, Ali Baş Komandan əmr verərsə, düşmən Silahlı Qüvvələrimizin qarşısında duruş gətirə bilməz. Bunu məlum aprel döyüşləri də sübut edib".

Ordu həmkarlarının nümayəndələri gətirdikləri sovqatı - televizoru, üçrəngli Azərbaycan bayrağını, Azərbaycan dilinə tərcümə olunmuş Qurani-Kərimi, qiymətli hədiyyələri hərbçilərimizə bağışladılar, onları dadlı şirniyyata qonaq etdilər.

Polkovnik-leytenant Rasim Manafov ön xətdə döyüş növbətçiliyi aparan döyüşçülərimizlə görüşə gəldiklərinə görə Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələrinə minnətdarlığını bildirdi.

Avqustun 7-də təmas xətti yaxınlığında yerləşən Qaralar kəndini erməni hərbçiləri atəşə tutmuş və 13 yaşlı Ramil Yusifov öz həyətində ayağından qəlpə yarası almışdı. BHİK nümayəndələri Ramil Yusifova da baş çəkməyi özlərinə borc bildilər. Abiyat xanım onun səhhəti ilə maraqlandı. Özünü gümrah hiss edən ələçi məktəblinin böyüyəndə hərbçi olmaq istəyi isə hamının ürəyindən oldu. Ramilin valideynləri göstərdikləri diqqətə görə ordu həmkarlarının nümayəndələrinə səmimi minnətdarlıqlarını bildirdilər. Ramilə də Qurani-Kərimin bir nüsxəsi, "Ordu Həmkarları Yarım Əsrin Zirvəsində" adlı kitabı, dadlı şirniyyatlar və maddi yardım təqdim olundu.

Belə bir məşhur deyim var ki, ordu xalqın övladıdır. Doğrudan da, müstəqil ölkəmizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimiz bu gün həm dövlət rəhbərliyinin, həm də xalqın hərtərəfli qayğısı ilə əhatə edilib. Xalqımızın öz ordusuna bu cür münasibəti isə onu daha da qüdrətli, yenilməz edir.

**"Azərbaycan Ordusu"**

# Məqsəd şəxsi heyətin psixoloji hazırlığını artırmaqdır



*Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Silahlı Qüvvələrdə ideoloji otaqların, səyyar təbliğat məntəqələrinin və səyyar təşviqat guşələrinin təşkili uğrunda yarışlar keçirilib. Həmin yarışları Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndələri izləyiblər.*

Təlimlər keçiriləndən sonra "N" hərbi hissəsi komandirinin şəxsi heyətlə iş üzrə müavini mayor Fuad Məmmədovla görüşüb təlim barədə təəssüratlarını öyrənirik.

Söhbət zamanı zabit bildirdi ki, təlim ilk olaraq hərbi hissə komandirinin əmrinə əsasən bölüklər səviyyəsində həyata keçirilib: "Qalib gələn bölüklər birlik üzrə yarışlara cəlb olunub. Hərbi hissəmiz birinci yeri tutduğuna görə Silahlı Qüvvələrdə təmsil olunmaq hüququna nail olub. Bu yarışda da şəxsi heyətimiz yüksək səviyyədə iştirak edib".

Yarışın gedişi haqqında geniş məlumat verən həmsöhbətim onu da söylədi ki, əvvəl ideoloji otaqlara baxış keçirilib. "Danmaq olmaz ki, əyani təşviqat vasitələrinin və divar mətbuatının da hərbi qulluqçuların tərbiyəsində xüsusi rolu vardır. İdeoloji otaqlarda hərb elminin nəzəri əsaslarının öyrədilməsi və əsgərlərin asudə vaxtının səmərəli təşkili məqsədilə hərtərəfli şərait yaradılıb, müxtəlif məlumat stendləri yerləşdirilib. Bu da onu göstərir ki, döyüş hazırlığının ümumi hərbi-elmi əsaslarla öyrədilməsi, hərbi vərdişlərin təkmilləşdirilməsi komandanlığın daim diqqət mərkəzindədir".

Öyrənirəm ki, ideoloji otaqlarda Azərbaycan dövlətinin rəmzləri, tarixi, ümummilli liderimiz Heydər Əliyevin portreti, dövlət və ordu quruculuğu sahəsində fəaliyyəti, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin portreti, onun Silahlı Qüvvələr qarşısında qoyduğu vəzifələr və ordu haqqında fikirləri Azərbaycan Respublikası Müdafiə nazirinin Silahlı Qüvvələr qarşısında qoyduğu vəzifələr və tapşırıqlar, qan yaddaşımız, bölmələrin fəaliyyəti geniş işıqlandırılıb. Bir sözlə, şəxsi heyətin tərbiyəsi işində emosional təsir yükü daşıyan ideoloji otaqlar tərtibatı ilə seçilib:

- Bütün bunların təmin edilməsində hərbi hissə komandirinin əmrinə əsasən, seçilən ideoloji otağın şurasının rolu böyükdür. Hərbi hissə komandirinin əmrinə əsasən bölükdə ideoloji otağın şurası seçildi. Əsas məqsəd isə ideoloji otaqları təbliğ etmək, səhra şəraitində ideoloji səyyar məntəqələri yaratmaq və döyüşlərdə şəxsi heyətin mənəvi-psixoloji durumunu yüksəltməkdir.

İdeoloji otaqlara baxış keçirildikdən sonra hərbi hissələrin yarışlarda iştirak etmək imkanı qazanan şəxsi heyəti səyyar təbliğat məntəqələrini və səyyar təşviqat guşələrini qonaqlara və hərbi hissələri təmsil edən hərbi qulluqçulara nümayiş etdirdi. Səhra şəraitində çadırlar qurulub. Bu məntəqələr təşviqat guşələri, video və audio vasitələr, kütləvi informasiya vasitələri ilə təchiz olunub. Bütün bunlar da təlim və döyüş əməliyyatları zamanı şəxsi heyətin asudə vaxtının təşkil edilməsində xüsusi rol oynayan səyyar ideoloji məntəqələrin əhəmiyyətini artırır.

Sonda mayor Fuad Məmmədov qeyd etdi ki, yarışların əsas məqsədi hərbi əməliyyatlara cəlb olunan şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsidir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətən sevgisinin təcəssümü

Orduya, hərbçi peşəsinə maraq son vaxtlar özünü kifayət qədər qabarıq şəkildə göstərir. Oğullarımızla yanaşı ömrünü hərbçi peşəsinə həsr etməyi qərara alan qadınlarımızın sayının ildən-ilə çoxalması da məhz bunun göstəricisidir. Şərəfli hərbçi peşəsinə yiyələnmək, Vətən keşiyində dayananlarla eyni sırada dayanmaq istəyilə Müdafiə Nazirliyinə, ayrı-ayrı qoşun növlərinin komandanlığına müraciətlər olunur.



"N" hərbi hissəsində olarkən çavuş Əsməyə Hidayətova ilə tanış oldum. Vətənimizə bağlılığı, peşəsinə sevgisi hər bir hərəkətindən, kəlməsindən hiss olunurdu. Kəlmələşərkən öyrəndim ki, Bakı şəhəri, Buzovna qəsəbəsində anadan olub. Daxilindəki ümmansız Vətən sevgisinin əsası valideynləri tərəfindən qoyulan hərbçi xanımın orta məktəb illərindən hərb sənətinə marağı yaranıb.

- Təhsil aldığım orta məktəb şəhid İftixar Tağıyevin adını daşıyır. Bir zamanlar bu məktəbdə, əyləşdiyimiz parta arxasında gələcəklə bağlı xəyallar quran gəncin ömrünü Vətən üçün, torpaq üçün, bizlər üçün fəda etməsi ilə daim qürurlanıram. Bu gün artıq arzularım reallaşıb. Düzdür, hərbçi çətin peşədir, amma şərəflidir. Bir də ki, ürək Vətən sevgisiylə döyünəndə, insan heç bir sahədə çətinlik hiss etmir.

Öyrənirəm ki, çavuş Ə.Hidayətova 2014-cü ilin aprelindən maddi-texniki təminat taborunun operatoru kimi xidmətdədir. Hərbi formanı əyninə geyindiyi günü yenidən xatırlayanda hərbçi xanımın səsindəki sevinci, fərəhi duymamaq mümkünsüzdü. Həmin gün sevincini bütün doğmalarıyla, dostlarıyla paylaşdığını söyləyir. "O anlarda keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Dünyada məndən xoşbəxt insan olmadığını düşünürdüm. O anlarda düşünürdüm ki, mən artıq adi vətəndaş deyiləm. Mən hərbçiyəm. Forma daşıdığım üçün fəxr edir, qürur duyurdum."

Əsməyə deyir ki, bu müqəddəs peşəni seçəndən sonra hərəkət və davranışlarına daha çox diqqət edirsən. Axı, hərbçi həyatı intizamlı olmağı və güclü iradə tələb edir. Hərbçi xanım xoşbəxtdir, ailələrində 2 qız övladı böyüyür. İşdən evə qayıdanda qızlarının onun paltarlarını geyinib papağını başlarına qoyaraq "biz də əsgər olacağıq" deməlerindən, onunla qürurlanmalarından da sevinclə söz açdı.

Azərbaycan qadını çox güclüdür və hər şeyə qadirdir. Hərbçi qadınların da ən böyük arzusu Qələbə xəbərini qalib ordunun sıralarında qarşılamaqdır. Bu müqəddəs amal uğrunda qadınlarımız da Ali Baş Komandanın əmrinə müntəzirdilər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

# Könül ziyarəti



Sağ da meşəlikdi, sol da. Meşəliyin içiylə üzü yüksəkliyə aparan yolun yolçusuyuq. Görüşəcəyimiz, kəlmələşəcəyimiz əsgərlər bir daha əmin olacaqlar ki, xalq ordunun dayağıdı. Biz də bir daha əmin olacağıq ki, ordumuz güclüdü, torpaqlarımız etibarlı qorunur. Bir daha inanacağıq ki, yüksəkliyə söykənən Qaralar kəndinin əhalisi nə atılan güllələrdən, nə də qarşı tərəfdə mövqelərə sığınan ermənilərdən çəkinir...

Əsgər hərbi xidmətdədi - Vətəni qoruyur. Harada işləməsindən asılı olmayaraq bəşəri borc, əsgərə - orduya sevgi vətəndaşı əsgərləşdirir. Əsgərlərlə hər görüş əsgərləşən vətəndaşlara qədərsiz könül xoşluğu verir, xalq şairi Zəlimxan Yaqubun təbirincə desək, "əli əl isidir, qanı qan çəkir". Onda əsgərlərin baxışlarının qaynarlığından dikələn inam yenə arzuladığımız yolun işığı olacaq. Bu işıq könül ziyarətinin işığıdı. Yunus Əmrəni xatırlayıram. Xatırladıqca gah əsən, gah kəsən yellər də, yarpaq-yarpaq, budaq-budaq gümüldənən agaclar da sanki "Bu istidə, bu bürküdə uzaq yolu yaxın edib gələnlərə salam olsun!" deyir; təbiət əsgərlərə saygısı olanlara həmişə saygılı olub...

Əsgərlərin görüşünə Ana gedir!..

Əsgərlərdən Cəfər Cabbarlının "Ana" şeirini kimin bildiyini soruşacam. Hamısı bu bənzərsiz şeiri həvəslə deyəcək, şübhəsiz...

...Bu da böyük sevgilərlə könül ziyarətinə gəldiyimiz yüksəklik!

Əzizimiz, güvəncimiz olan əsgərlərdən birini ötən il Murovda gördüyüm, könlümə yazdığım İlqara oxşadıram. "Qardaşımdı..." - deyir. Məmnunluqla gülümsünürük...

Belə səmimi, belə istiqanlı görüşdən kövrələn də olur, kövrələni baxış-baxış qınayan da. Bu bənzərsiz kövrəklik də, bu ürkəcək qınaq da ötərdi; Vətən, torpaq ünvanlı söhbətin səmimiliyi də, səmimiliyin doğmalığı da kövrəkliyi kəlmə-kəlmə könüllərdən üzür:

- Sizin görüşünüzə ana sevgisiylə gəlmişəm. Hər birinizi oğlum bilib gəlmişəm. Hər birinizi bağrıma basmağa gəlmişəm, döyüş növbətçiliyi aparanda qarşı tərəfdən üzülməyən gözlərinizdən öpməyə, silah sıxan əllərinizi sıxmağa gəlmişəm...

Əsgərlər duyğularının göyqurşağına dönən kəlmələri o qədər sevgilərlə dinləyirlər ki! Sara xatunun döyüşçülərə nəsihətini - "Ananız yaxındamı, uzaqdamı, bilmirəm. Onların adından deyirəm: elə döyüşün ki, ananız südünü sizə halal etsin!", həmin döyüşdə Ağqoyunluların möhtəşəm qələbəsini xatırlayıram...

- Sizinlə hər görüşü taleyimin qazancı bilirəm, - deyir Ana. - Baxıram, görürəm, hiss edirəm, duyuram ki, hər biriniz qalib əsgər olmaq istəyirsiniz.

Yüksəklikdə eşidilən kəlmələr mənəvi ucalığın harayçısına dönür sanki. Əsgərlərin baxışlarını kəlmə-kəlmə oxumaq çətin deyil: "Hərbi xidmətimiz bunun üçündü. Torpaqlarımızı işğaldan biz azad edəcəyik, bizdən sonra xidmət edənlər bərpa olunmuş ərazi bütövlüyümüzün əsgəri olacaqlar"...

Hər əsgər anasını anaraq ana nəsihətinin cazibəsindədi. Əsgər Telman Şirməmmədov deyir ki, elə bilirdim hərbi xidmətə gələn vaxt anamın dediklərini eşidirəm...

Döyüş növbətçiliyi aparan əsgər Nurəddin Ağayevlə Ananın söhbəti zabitləri də, bizi də duyğulandırır; hər incə sorğuda ana narahatlığı var, hər cavab inamıyla, qətiyyətiylə ürəkləri telləndirir.

Nurəddin Ağayev Laçın rayonundandır. Laçını görməyib. Laçını ata söhbətlərindən, nənə-baba xatırlamalarından tanıyır: "İşğalda olan digər ərazilərimizi kimi görmədiyim, görmədən sevdiyim Laçını da işğaldan azad edəcəyik. Bunu bu gün bizə böyük sevinc yaşadan Anaya əsgər yoldaşlarımın adından tam əminliklə deyirəm"...

Səsin doğmalığı, sözlərin səmimiliyi ürəyimi telləndirir. Əsgərlərimizin hamısının səsi doğmadı, dediyi hər kəlmə könüləyatandı - düşünürəm.

İsti də sovuşub, bürkü də; həzin-həzin yel əsir...

Telman Şirməmmədov Sabirabaddandı. 11 aydı xidmət edir. Ana nəsihətini dinləsə də, baxışları qarşı tərəfdən yayınmır. Döyüş növbətçiliyi başa çatandan sonra deyəcəkdi ki, hər kəlmə əlimdən yapışıb qarşı tərəfə çəkirdi...

"Əsgərlərin döyüş hazırlığını təlimlər, mənəvi-psixoloji hazırlığını həm də belə ziyarətlər formalaşdırır" - düşünürəm...

... Günəş qüruba meyillənib. Qayıdırıq. Ayaq gedir, ürək geri çəkir. "Yenə gələcəyik!" - ümidi əsgərlərin baxışlarından sezilməsi çətin olmayan kövrəkliyi silir...

...Əsə-əsə birnəfəsə bu yüksəkliyə çatan yellər orda duruş gətirə bilməyəcək; yellərin ünvanı Şuşadı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Əsgər məktubu*

# Vətənimin keşiyində dayanmışam!

Salam, ana. Necəsən? Yəqin mənsiz çox darıxırsan. Mən də sənsiz çox darıxıram, səni hər an düşünürəm, ana. Amma narahat olmağa dəyməz, çünki burada hər şey yaxşıdır, heç bir narahatlığım yoxdur. İlk fikirləşdiyin odur ki, görəsən, mənim balam nə yeyir, nə içir? Burada da analarımızın bişirdiyi yeməklər evdə gözəl əllərinlə bişirdiyin yeməklərdən heç də fərqlənmir.

Fəxr ediləsi əsgər dostlarım var. Onlarla keçən hər an yaddaşımda xoş xatirələrə çevrilir. İnanıram ki, tezliklə onlarla daha gözəl anları yaşayacaq, xalqımızı sevinc göz yaşlarına qərq edəcəyik. Komandirlərimiz də mənə əziz və doğmadırlar, çünki bizimlə bir ailədə olduğu kimi rəftar edirlər. Döyüşçü kimi yetişməyimizə vəsilə olan hər bir şeyi - silah və texnikanı, nizam-intizamı, vəzifə borcumuzu bizə onlar izah edirlər.

Atam necədir? Onun işləri necə gedir? Məni bu yaşa qədər əzab-əziyyətlə böyüdən, hər arzumu həyata keçirən atam üçün də



çox darıxıram. Atamın "Oğul, bu gündən hərbi xidmətə yola düşürsən, Allah yolunu açıq eləsin. Unutma ki, hərbi xidmət şərəfli yoldur, çalış bu yolda büdrəməyəsən, Vətənimizi layiqincə qoruyasan. Vətən hər şeydən əzəldir, lazım gələn anda, Vətən yolunda canından da keçməyə hazır ol!" sözləri əsgər həyatımın amalına çevrilib.

Ana, qardaşım necədir? Dərslərini necə oxuyur? İmtahanları necə keçdi? İnanıram ki, qardaşım imtahanlarının öhdəsindən layiqincə gələcək. Çünki sizin tərbiyənizi görən övlad hər zaman birincilər sırasında, vətənpərvər olmağa layiqdir. Başqa cür də ola bilməz. Gələn il qardaşım da müqəddəs əsgər adını daşıyanların sıralarına qatılacaq. Onunla keçirdiyim uşaqlıq illərimiz, xoş xatirələrimiz hərdən yadıma düşür. Burada da qardaşlarımın sayı çoxdu. Əvvəllər bütün sirlərimi qardaşımla bölüşürdüm. İndi qardaşım yanımda yoxdu, amma əvəzində qayğıkeş əsgər yoldaşlarım, sirdaşlarım var. Qoy qardaşım da bilsin ki, əsgərlikdə hər şey yaxşıdı. Hərbi xidmət kişilik məktəbidir, adamı həyatın sirlərinə alışdırır. İnşallah, qardaşıma da bu həyat nəsib olacaq...

Dostlarım İsmayıl, Soltan, İlkin, Fəxri necədilər, ana? Mən bura gələndən sonra onlar sizlərə maraqlanırlar? Bilmirsən, anacan, Fəxrinin imtahanları necə oldu? Dostlarıma məndən salam deyərsən. Onlara deyərsən ki, dostlarım daha da artıb. Zaman gələcək, əsgər dostlarımı onlarla da tanış edəcəm.

Hər an mənim keşiyimdə dayanan anam, indi sənin, sənin simanda bütün anaların, Vətənimizin keşiyində dayanmışam. Mənə görə narahat olma, çünki mən güclü bir ordunun - Azərbaycan Silahlı Qüvvələrinin, qətiyyətli Ali Baş Komandanımızın əsgəriyəm.

Bir azdan döyüş növbətçiliyinə gedəcəm. Sağ ol, ana. Özündən muğayat ol, əllərindən öpürəm.

**Əsgər**
**Elçin KƏRİMLİ,**
**"N" hərbi hissəsi**

# Xəbərlər:

## hadisələr, faktlar

### İki sahili birləşdirən unikal körpü



Norveçin "Rintala Eggersson Architects" arxitektura bürosunun mütəxəssisləri Send şəhərində iki sahili birləşdirən unikal körpünün layihəsini təqdim ediblər.

"Hose Bridge" adlandırılan və poladdan hazırlanan körpü xüsusilə gecələr daha rəngarəng və işıqlı görünür. Körpüdən nəinki piyadalar, həmçinin velosipedçilər də istifadə edə bilərlər. Ən əsası isə körpü vasitəsilə sakinlər çayın digər sahilinə tez və təhlükəsiz şəraitdə keçə biləcəklər.

### Latviyada terrorizmə bəraət qazandırmağa görə cəza tətbiq ediləcək



Latviya hökuməti indiyədək qanunvericilikdə təsbit edilməyən, terrorizmlə bağlı müxtəlif hərəkətləri kriminallaşdırmağı qərara alıb.

Latviya terrorizmin qarşısının alınması haqqında Avropa Şurası Konvensiyasına qoşulub, iki il əvvəl isə əlavə protokolu imzalayıb. Həmin protokola digər məsələlərlə yanaşı, indiyədək nə milli, nə də beynəlxalq səviyyədə kriminallaşdırılmayan, terrorizmlə bağlı bir sıra cinayət növlərinin kriminallaşdırılması haqqında əlavə tələblər daxildir.

Bu bölməyə terrorizm məqsədi daşıyan səfərlər, terrorizmə bəraət qazandırılması, terrorizmə çağırış və terrorizm təhdidləri daxildir.

### ABŞ Şimali Koreyaya neft embarqosu tətbiq olunmasını tələb edir



BMT Təhlükəsizlik Şurasına qərar layihəsi təqdim edən ABŞ nüvə raket sınaqlarını davam etdirən Şimali Koreyaya neft embarqosu tətbiq olunmasını tələb edib.

Qərar layihəsi sentyabrın 11-də səsverməyə çıxarılacaq. Yeni layihə Şimali Koreyaya neft embarqosu tətbiq edilməsini, bu ölkənin lideri Kim Çen Inın xaricdəki mal varlıqlarının dondurulmasını və səyahət qadağasını, tekstil ixracının və ölkədəki işçilərin xaricdə çalışmasının qadağan edilməsini əhatə edir.

Yeni sanksiyaların qəbul edilməsi üçün BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransanın veto hüququndan istifadə etməməsi və 15 üzvdən ən azı 9-nun layihə lehinə səs verməsi lazımdır.

### Türkiyənin dörd vilayətində 16 terrorçu zərərsizləşdirilib



Türkiyədə PKK terror təşkilatına qarşı ölkə miqyasında həyata keçirilən əməliyyatlar zamanı dörd vilayətdə ümumilikdə 16 terrorçu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi açıqlama yayıb.

Məlumatda qeyd olunub ki, sentyabrın 6-da keçirilən əməliyyatlar nəticəsində Şırnakda 5, Ağrıda 5, Muşda biri yaralı olmaqla 5 və Mersində isə 1 terrorçu zərərsizləşdirilib.

Şırnakın Uludərə rayonunda keçirilən əməliyyatlar zamanı 5 terrorçu öldürülüb. Ağrı vilayətinin Diyadin rayonunda Hərbi Hava Qüvvələrinin də iştirakı ilə həyata keçirilən əməliyyat nəticəsində 5 terrorçu zərərsizləşdirilib. Muşun Alaniçi kəndində aparılan əməliyyatlar zamanı isə dörd nəfər öldürülüb, bir terrorçu yaralı vəziyyətdə ələ keçirilib.

Əməliyyatlar zamanı PKK terrorçuları ilə yanaşı, İŞİD terror qruplaşmasının bir üzvü də öldürülüb. Belə ki, Mersin vilayətinin Yenişəhər rayonunda polis şöbəsinin binası qarşısında üzərində bomba yerləşdirilən terrorçu təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Ordu və cəmiyyət*

# Mən də əsgər atasıyam!

"Hər yaşın öz hökmü var" - atalar sözüdü. Həm də hər yaşın öz məsuliyyəti, öz borcu var. Yeniyetmə təhsil almalıdı, gənc Vətənə xidmət etməlidi - yeniyetmə də, gənc də əsl vətəndaş kimi formalaşmalıdı. Bu prosesdə müəllimlərin də, valideynlərin də böyük rolu var. Zamanında bizə deyilənləri biz də gənclərimizə deməliyik.

Mən hərbçi olmuşam. İyirmi səkkiz il xidmət etmişəm. Oğlum göz açıb məni hərbi mundirdə görüb. Təbii ki, hərbi mundir onu maraqlandırırdı, müxtəlif sualları ilə hərbi xidmət haqqında müəyyən anlayışlar öyrənirdi. Bir dəfə - onda səkkiz yaşı vardı - məndən soruşdu ki, niyə hərbçi oldun? Düzü, onu qane edəsi cavab verə bilməyəcəyimdən ehtiyatlandım, "Vətən belə istədi, oğlum", - dedim. Bir anlığa susdu. Sonra çəkinə-çəkinə dilləndi: "Vətən istəyərsə mən də hərbçi ola bilərəmmi?". Saçlarını oxşadım, "Vaxtı çatanda sən də hərbçi olacaqsan", - dedim. Vaxtı çatdı. Oğlum əsgərdir. Andiçmə mərasimində məni incə şəkildə qınadı: "Niyə hərbi mundirdə gəlməyibsən? Zabit-əsgər, ata-bala formada şəkil çəkdirərdik...". Onun hərbi mundirə, hərbi xidmətə münasibəti qəlbimi dağa döndərdi...



Bayram hərbi xidmətə gedənə kimi söhbətlərimiz əsasən Vətəndən olardı, Qarabağdan olardı, aprel döyüşlərindən olardı, aprel döyüşlərinin qəhrəmanlarından, şəhidlərdən olardı. Qəhrəmanların döyüş yolundan danışmağa maraqlı idi. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun qəhrəmanlığından danışanda qaşları çatılardı, "Biz çağırışçılar ona oxşamalıyıq..." - deyərdi.

Təsadüfüydümü, zərurətiydimi, hər nəyiydisə, oğlum Bayram qəhrəmanın - Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun hərbi and içdiyi hərbi hissədə hərbi and içdi.

Bayram iqtisadi münasibətlər ixtisası üzrə ali təhsil alıb, ali təhsilli əsgərin dünyagörüşü, müəyyən mənada geniş olur. İnanıram ki, əsgər Bayram Həmidov müəllimlərinin də, valideynlərinin də etimadını doğruldacaq.

Əsgər Vətən borcunu ödəyir. Bu borc xidmət dövrü ilə məhdudlaşmır. Digər gənc əsgərlər kimi Bayram da bilir ki, Vətən borcu vətəndaşlıq borcunun tərkib hissəsidir...

Döyüşlərdə də olmuşam. Bunu oğlum da bilir. Bilir ki, sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Döyüşən əsgərlərin sırasında o da olacaq. O da çox arzulayır ki, qələbə sevincini əsgər kimi yaşasın.

Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu günün əsgərləri həmin o döyüşlərin qəhrəmanlarının yolunu davam etdirmək əzmi ilə xidmət edirlər. Oğlum Bayram Həmidov da onların sırasındadır. Bundan qürur duyuram. Əsgər atasıyam - qürurlanıram...

**Kərim HƏMİDOV,**
**əsgər atası,**
**Gəncə şəhəri**

*Hərbi ənənələr, yeniliklər*

# "Qara pantera" tankı



K2 "Qara pantera" tankları quşunların istifadəsində olan M48A5K döyüş maşınlarını gələcəkdə əvəz edəcək. Onların iri miqyasda istehsalına hələ 2009-cu ildə başlanmalı idi. Koreya Respublikasının ordusu tərəfindən ilk olaraq təqribən 680 ədəd K2 "Qara pantera" tankının əldə olunması planlaşdırılmışdı. Lakin maliyyə çətinliyi üzündən onların sayı 390-a çatdırılıb. K2 "Qara pantera"nın əvvəlcə iki variantının hazırlanması nəzərdə tutulub. Onlardan birinin boş qüllədə 140 mm-lik topla və 120 mm-lik toplu, klassik tərtibatlı döyüş maşınının isə qüllədə yerləşdirilməsi gözlənilirdi. Bəzi səbəblərə görə koreyalılar ikinci variantı seçiblər. Üç K2 "Qara pantera" tankının nümunəsindən biri 2007-ci ildə Çanqvonda nümayiş etdirilib.

2010-cu ilin əvvəlində iki variantda hazırlanmış K2 "Qara pantera"nın zirehlənmədən başqa dinamik mühafizə ilə təchiz edilməsi nəzərdə tutulub. Maşının mexanik-sürücüsü periskopik müşahidə cihazları, eləcə də gecəgörmə cihazları ilə təchiz edilib. Top komandirinin və tuşlayıcının yeri topun sağ və sol tərəfindədir. Bundan başqa burada ayrıca panoramlı nişangah, həmçinin lazerli uzaqölçən vardır. Müasir tank lüləsinin uzunluğu 6 m olan 120 mm-lik hamarlüləli L55 topla və avtomatik təchizolma mexanizmləri ilə təchiz edilib. Topun döyüş dəsti 40 atışdan ibarətdir. Onun 16-sı təchizolunma avtomatındadır. Topun tuşlama bucağından asılı olmayaraq atəş tezliyi dəqiqədə 15 atış təşkil edir. Xüsusi olaraq tank üçün yeni döyüş sursatları işlənilib. Zirehlənməmiş və yüngül zirehlənmiş hədəflər, canlı qüvvələr və alçaqdan uçan helikopterlər üçün yeni çoxməqsədli kumulyativ mərmilər də istifadə oluna bilər.

K2 "Qara pantera" üçün KSTAM mərmisi hazırlanıb. Bu "intellektual" özütuşlanan inersiyalı mərmi ilə yüksək zirehlənmiş hədəflərə həmlə etmək olur. KSTAM mərmisi "atəş açdın-yaddan çıxartdın" prinsipi ilə işləyir. Bu mərmidən istifadə etmək üçün haubitsa artilleriyasında olduğu kimi asma trayektoriyadan istifadə edilir. Mərmi millimetrlik diapazon dalğasında radarla, infraqırmızı və radiasiya göstəriciləri ilə təchiz edilib. KSTAM mərmisi ilə 2 kilometrdən 8 kilometrə qədər uzaqlığa birbaşa tuşlama və gizli atəş mövqelərindən atəş açmağa imkan verir. Daha sonra qüllədə qoşa 7,62 mm-lik topla 12,7 mm-lik zenit topu da quraşdırılıb.

Müasir atəşi idarəetmə sistemi tez və dəqiqliklə alçaqdan uçan helikopterləri müşayiət edə və əsas silahı ona tərəf istiqamətləndirə, həmçinin döyüş maşınına doğru uçan mərmiləri aşkar edə bilər, teplovizordan istifadə etməklə 10 kilometrlik məsafədə yerləşən hədəfləri ələ keçirə bilər. Döyüş maşını informasiya idarəetmə, peyk-naviqasiya sistemi, "özününkü-yad" tanıma sistemi ilə də təchiz edilib. Gələcəkdə tankın modernləşdirilməsi zamanı yeni sistemlərin quraşdırılması da nəzərdə tutulub.

K2 "Qara pantera"nın döyüş çəkisi 55 ton, heyəti 3 nəfər, gövdəsinin uzunluğu 7500 mm, topla birlikdə uzunluğu 10.800 mm, eni 3600 mm, hündürlüyü 2200 mm-dir. Mühərriki 1500 at gücündədir, şose yolda sürəti saatda 70 kilometr, nahamar yollarda isə saatda 50 kilometrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Güləşçimiz Şahanə Nəzərova dünya çempionu olub



Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı davam edir.

Dünya çempionatında 38 kiloqram çəki dərəcəsində mübarizə aparan Şahanə Nəzərova ilk görüşdə Yaponiya təmsilçisini 84, yarımfinalda isə Rusiya idmançısını 65 saniyədə tam üstünlüklə məğlub edərək finala yüksəlib. Final görüşündə güləşçimiz Ukrayna təmsilçisinə də vaxtından əvvəl, cəmi 82 saniyəyə tam üstünlüklə qalib gəlib və dünya çempionatının qızıl medalına yiyələnib.

Qeyd edək ki, Şahanə Nəzərova bir ay bundan əvvəl yeniyetmələrin Avropa çempionu adını qazanıb.

## Azərbaycanın yunan-Roma güləşçiləri dünya çempionatını 1 qızıl və 2 gümüş medalla başa vurublar

Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı davam edir.

Mundialda 42 kiloqram çəki dərəcəsində mübarizə aparan yunan-Roma güləşçimiz Qurban Qurbanov İtaliya və Namibiyadan olan rəqiblərini mübarizədən kənarlaşdırdıqdan sonra yarımfinalda Rusiya idmançısına da qalib gəlib və çempionatın finalına vəsiqə qazanıb. Həlledici görüşdə onun rəqibi Ukrayna idmançısı olub. Sentyabrın 6-da keçirilən final görüşündə rəqibini məğlub edən Qurban Qurbanov dünya çempionatının qızıl medalına sahib olub.

Digər yunan-Roma güləşçimiz Nihad Məmmədli (46 kq) də Qırğızıstan, Türkiyə və Rusiyadan olan rəqibləri üzərində qələbə qazanaraq finala yüksəlib. Final görüşündə Ukrayna təmsilçisinə məğlub olan güləşçimiz mundialın gümüş medalı ilə kifayətlənib.

Qeyd edək ki, yunan-Roma güləşçilərimiz dünya çempionatını 1 qızıl və 2 gümüş medalla başa vurublar.

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi İtaliya yığmasına qalib gəlib



Avropa çempionatına hazırlığı davam etdirən qadın voleybolçulardan ibarət Azərbaycan millisi daha bir yoxlama matçını keçirib.

Baş məşqçi Faiq Qarayevin yetirmələri Milan şəhərində İtaliya millisi ilə üçüncü dəfə görüşüblər. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmada Azərbaycan millisi rəqibinə 3:2 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, komandamızın İtaliya voleybolçuları ilə əvvəlki iki görüşü rəqibin xeyrinə başa çatmışdı - 3:0 və 3:2.

## "Neftçi" klubu ikinci yoxlama oyununda da qalib gəlib



"Neftçi" futbol klubu Azərbaycan milli komandasının dünya çempionatının seçmə mərhələsindəki oyunları ilə əlaqədar Azərbaycan Premyer Liqasında yaranmış fasilə zamanı ikinci yoxlama oyununu keçirib. Əvəzedici heyətlə oyun əsas komandanın 5:1 hesablı qələbəsi ilə nəticələnib.

Xatırladaq ki, "Neftçi" ilk yoxlama oyununda MOİK-ə 3:0 hesabı ilə qalib gəlmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Rəhimov Ramin İslam oğluna 2013-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 364
Nüsxə 4600